

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

31 yanvar 2025-ci il
Cümə

1933-cü ildən çıxır
№ 4 (3716)

## Yeni islahatlar başlayır

### Bakının nəqliyyat məsələsi gündəlikdədir

**Yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirə keçirilib. Müşavirədə Bakı şəhərinin və onun ətrafında yerləşən ərazilərin nəqliyyat infrastrukturunun inkişafı müzakirə olunub.**



Prezident İlham Əliyev çıxışında deyib ki, son illər böyük infrastruktur layihələrinin icra edilməsinə baxmayaraq, yenə də Bakı şəhərində tıxac müşahidə olunur. Vaxtilə yaradılmış şəhər yol infrastrukturu, o cümlədən metro imkanları əhali artımını həzm edə bilmir.

Bakı şəhərinin nəqliyyat infrastrukturu ilə bağlı görülən işlərə diqqət çəkən dövlət başçısı bildirib ki, son 20 il ərzində Azərbaycanda 21 min kilometr avtomobil yolu tikilib və təmir edilib. 335 körpü və yol ötürücüsü, 45 tunel, 163 yerüstü və yeraltı keçid tikilib.

Ölkənin dəmir yolu infrastrukturu üçün isə 1500 kilometrdən çox dəmir yolu tikilib, 1800 kilometr təmir edilib, yeni qatarlar və vaqonlar alınıb, 90 kilometrdən çox olan Abşeron dairəvi xətti istifadəyə verilib.

Bakı-Tbilisi-Qars dəmir yolu çəkilib. Son 20 il ərzində Azərbaycanda səkkiz beynəlxalq hava limanı inşa edilib. 2008-ci ildən bu günə qədər metronun yeddi yeni stansiyası tikilib və qəbul ediləcək Dövlət Proqramında yeni 10 metro stansiyasının tikintisi nəzərdə tutulur. 266 yeni nəsil metro vaqonu alınıb və bu proses davam etdirilir.

Azad edilmiş ərazilərdə görülən işlərin əsasını nəqliyyat layihələrinin təşkil etdiyini vurğulayan dövlət başçısı 3400 kilometrə yaxın avtomobil yolu layihəsi icra edildiyini deyib. Eyni zamanda, 45 tunel, 447 körpü, 16 viaduk nəzərdə tutulub. Bunlardan 28 tunel, 392 körpü və 9 viadukun tikintisi tamamlanıb. Horadiz-Ağbənd dəmir yolunun 60, Bərdə-Ağdam dəmir yolunun 94 faizi inşa edilib.

Azərbaycanın coğrafi vəziyyətinə nəzər salan Prezident Avrasiyanın nəqliyyat xəritəsini Azərbaycansız, onun nəqliyyat infrastrukturu olmadan təsəvvür etməyin mümkün olmadığını bildirib: "Hazırda bizim ərazimizdən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri keçir. Bu dəhlizlər üzrə daşınan yüklərin həcmi ildən-ilə artır. Yüklərin daha səmərəli daşınması üçün fiziki infrastrukturla yanaşı, digər addımlar da atılır, o cümlədən rəqəmsallaşma məsələlərinə diqqət göstərilir. Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaradılmışdır və ortaq müəssisələr, müştərək müəssisələr qurulmuşdur. Bir sözlə, bu gün Azərbaycan Avrasiyanın əvəzolunmaz nəqliyyat mərkəzlərindən biridir".

Yeni layihələr arasında Zəngəzur dəhlizini xüsusilə qeyd edən ölkə başçısı bu məsələni diqqət mərkəzində saxladığını, həm beynəlxalq müstəvidə, həm Ermənistanla ikitərəfli təmaslar əsnasında daim bu məsələni qaldırdığını bildirib: "Heç bir yoxlamadan keçmədən, heç bir maneə ilə üzləşmədən Azərbaycandan Azərbaycana rahat və azad keçid olmalıdır. Bu, bizim tələbimizdir".

Müşavirədə məruzəçilər məlumat veriblər ki, ölkədə sürətli sosial-iqtisadi inkişaf həm də əhalinin gəlirlərinin artmasını təmin edib. Bununla paralel olaraq, xüsusən də Bakıda və ətraf ərazilərdə dinamik demoqrafik artım nəticəsində sürətli avtomobilləşmə, avtomobillərin istifadəsi, xüsusən də şəhər mərkəzində istifadəsi artıb.

Çıxış edənlər məsələnin həlli üçün aparılan islahatlara diqqət çəkiblər, Prezidentin göstərişilə Bakının nəqliyyat məsələlərilə bağlı qəbul edilmiş Proqram üzrə nəzərdə tutulan layihələr barədə ətraflı məlumat veriblər.

## Növbəti seçki

### Prezident səs verib

Yanvarın 29-da Azərbaycanda keçirilən növbəti bələdiyyə seçkilərində Prezident İlham Əliyev Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 1 saylı seçki məntəqəsində səs verib. Dövlət başçısı səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçib və sonra bülleteni qutuya salıb. Qeyd edək ki, bu seçki dairəsi üzrə 31 namizəd mübarizə aparıb.

## Örnək ölkəyik

### Birgə əmin-amanlıqda yaşayırıq

Prezident İlham Əliyev yanvarın 27-də İsrail İqtisadi Forumunun həmtəsisçisi və İdarə Heyətinin üzvü Conatan Misneri qəbul edib. Görüşdə dövlət başçısı Azərbaycanda tarixən müxtəlif dinlərin və konfessiyaların, o cümlədən yəhudi icmasının nümayəndələrinin dostluq, əmin-amanlıq və harmoniya şəraitində yaşadıqlarını vurğulayıb. Qeyd olunub ki, bu, xalqımızın həyat tərzi olmaqla yanaşı, dövlət siyasətinin də tərkib hissəsidir.

## Dövlət qayğısı

### Polislərin maaşı artırılıb

Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılıb. Bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb. Nazirlər Kabinetinə Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb. Eyni zamanda DİN və Maliyyə Nazirliyi Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görəcəklər.

## Təbrik zəngi

### Prezident uğur arzulayıb

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 27-də Belarus Prezidenti Aleksandr Lukaşenkoya zəng edərək Prezident vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik edib. Telefon danışığı əsnasında dövlət başçıları iki ölkə arasında dostluq və tərəfdaşlıq əlaqələrinin bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

## Rəsmi xəbərlər

- "III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 iyul tarixli 198 nömrəli Sərəncamında dəyişiklik edilib. Bununla bağlı Prezident İlham Əliyev yanvarın 29-da Sərəncam imzalayıb.

- "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 85-VIIQD nömrəli Qanununun tətbiqi və "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 104 nömrəli Fərmanında dəyişiklik edilib. Prezident İlham Əliyev bununla bağlı yanvarın 28-də Fərman imzalayıb.

- Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətə baxılma qaydası müəyyənləşib. Bununla bağlı Prezident İlham Əliyev "Məişət zorakılığının qarşısının alınması haqqında" qanuna dəyişikliyi təsdiqləyib.

- Prezident İlham Əliyev yanvarın 27-də Məmməd Qurban oğlu Musayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

## Xalqın iradəsinin keşiyində

### Bələdiyyə seçkiləri tam sabitlik şəraitində keçirildi

Müşahidəçilərin fikrincə ölkəmizdə növbəti bələdiyyə seçkisi də sərbəst, azad və demokratik şəraitdə keçirildi. Biz buraya seçkinin sabitlik, ictimai qaydanın yüksək səviyyədə qorunması ilə baş tutduğunu da əlavə edə bilərik.

İstənilən seçkinin demokratik, ədalətli, şəffaf, beynəlxalq standartlara uyğun keçirilməsi ölkədəki sabitliklə sıx bağlı olur. Dünyanın və yerli ictimaiyyətin nəzərləri istər-istəməz həmin günlərdə yalnız iki dövlət qurumunun, seçkini təşkil edən aidiyyəti komissiyanın və polisin üzərində cəmlənir.

Elə bu zərurətdən irəli gələrək, seçkidən öncə Mərkəzi Seçki Komissiyası Daxili İşlər Nazirliyi ilə birgə regional seminar-müşavirələr keçirdi.

Ölkəmizin müxtəlif bölgələrində, şəhər və rayonlarda fəaliyyət göstərən seçki dairələri üzrə dairə seçki komissiyalarının sədrləri, şəhər və rayon polis şöbələrinin məsul əməkdaşları bu seminar-müşavirələrdə iştirak edirdilər.

Bununla da seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri, seçkidən sonrakı dövrdə seçki bülletenlərinin və digər seçki sənədlərinin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı təhlükəsizlik tədbirlərinin görülməsi mövzuları ilə bağılı ətraflı izahat işi aparılmış oldu.

Əvvəlki seçki proseslərində də oxşar seminarlar təşkil edilmişdi və bu baxımdan, seçki keçirən dövlət qurumu ilə ictimai qaydanı və təhlükəsizliyi təmin edən qurum arasında çoxdan qarşılıqlı əlaqə qurulub.

Ancaq hər bir seçki yeni başlanğıc, xalqın iradəsinin ifadə olunması deməkdir. Buna görə də bələdiyyə seçkilərinin sabitlik və əmin-amanlıq şəraitində keçirilməsi üçün daxili işlər orqanlarının qarşısına qoyulmuş vəzifələrin nümunəvi yerinə yetirilməsi xüsusi əhəmiyyət kəsb edirdi.

Seçkilərin ölkə qanunvericiliyinin tələblərinə uyğun təhlükəsiz və demokratik şəraitdə keçirilməsində, seçki günü vətəndaşların öz iradəsini sərbəst və azad ifadə etməsində ictimai asayişin etibarlı qorunması bu baxımdan mühüm amillərdən idi.

Daxili İşlər Nazirliyi ilə Mərkəzi Seçki Komissiyasının birgə hazırladığı "Polis əməkdaşları üçün yaddaş kitabçası" da seçki prosesinin zəruri metodiki vəsaiti sayılır.

Seçkilərə hazırlıq və keçirilməsi, seçkiqabağı təşviqat mərhələsində, səsvermə günü və rəsmi seçki sənədlərinin daşınması, mühafizə olunması proseslərində polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş xidməti vəzifələrini yerinə yetirərkən həyata keçirəcəyi tədbirlər, habelə vəzifələr burada aydın göstərilir. Bələdiyyə seçkilərində də bu kitabçalar məsul polis əməkdaşlarına paylanmışdı.

Sabitliyin təməli həmrəylikdir 2

Millət vəkilləri Polis Akademiyasında 2

Sərhəddən başlanan xidmət 3

Cəsəd oğrusu Eduard Qin 4

## RESPUBLİKA XƏBƏRLƏRİ

### Seçkilər uğurla başa çatdı

Yanvarın 29-da saat 19:00-da Azərbaycandakı bütün seçki məntəqələrində bələdiyyə seçkiləri ilə əlaqədar səsvermə başa çatıb. Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bələdiyyə seçkilərinin ilkin nəticələrinə dair keçirilən mətbuat konfransında deyib ki, seçkilərin ilkin nəticələri olaraq tam formalaşmış bələdiyyələrin sayı 413-dür.

### Bir millət, üç dövlət

Azərbaycan, Türkiyə və Özbəkistan suverenlik və ərazi bütövlüyü əleyhinə atılan addımlara qarşı bundan sonra birgə fəaliyyət göstərəcək. Bu məsələ hər üç ölkənin xarici işlər, iqtisadiyyat, ticarət və nəqliyyat nazirlərinin üçtərəfli görüşünün yekunlarına dair qəbul olunmuş Ankara Bəyannaməsində öz əksini tapıb.

### Silahlı şəxs zərərsizləşdirilib

Bakı şəhərində yanvarın 28-də narkotiklə əlaqəli cinayətlərə görə axtarışda olan şübhəli şəxs saxlanılarkən polis əməkdaşlarına silahlı müqavimət göstərib. Polis əməkdaşları tərəfindən xidməti tabel silahı tətbiq olunmaqla, əvvəllər dəfələrlə məhkum olunmuş 39 yaşlı Aslanov Ceyhun zərərsizləşdirilərək xəstəxanaya yerləşdirilib. Onun yaşadığı ünvandan külli miqdarda narkotik vasitə aşkarlanıb. Cinayət işi başlanılıb, istintaq hərəkətləri aparılır.

### Ötən ilin mina terroru

2024-cü ildə 41 şəxs Ermənistanın mina terrorunun qurbanı olub. Onlardan 5 nəfər həlak olub, 36 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Məlumata görə, 382 şəxs 2020-ci ilin noyabr ayından hazırkı vaxtadək mina və hərbi sursat partlayışlarının qurbanı olub, həmin şəxslərdən 70-i həlak olub, 312 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

### Quruculuğa nə qədər vəsait xərclənib?

Ötən il işğaldan azad olunmuş ərazilərinin yenidən qurulmasına və bərpasına dövlət büdcəsindən 4 milyard 828,5 milyon manat vəsait ayrılıb. Məlumata görə, bu vəsaitin 99,4 faizini sifarişçi təşkilatlar istifadə edib. O cümlədən, dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu üçün nəzərdə tutulan vəsaitin 98,5 faizi istifadə olunub.

### Gəlir çox, borc azdır

Ölkəmizin xarici borcu ən aşağı səviyyəyə enib. Maliyyə Nazirliyinin məlumatına görə, hazırda Azərbaycanın xarici dövlət borcunun səviyyəsi 5 milyard 160 milyon dollar və ya 2024-cü il üzrə ÜDM-in cəmi 6,9 faizini təşkil edir. Bu, dünya göstəricisindən çox aşağıdır.

### Qarabağa uzanan yollar

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi yekunlaşmaq üzrədir. Zəfər yolunun uzunluğu 101, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yeni yol 19,3 kilometr qısadır. Bu yol başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirir.

### Nə qədər neft satılıb?

Ötən il Azərbaycan dünyanın 25 ölkəsinə 14 milyard 437 milyon 355,99 min dollarlıq 23 milyon 596 min 132,23 ton neft ixrac edib. Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb. İtaliya əvvəlki dövrlərdə olduğu kimi, Azərbaycanın ümumi neft ixracında yenə birincidir. Neft ixracında ikinci yerdə Çexiya, üçüncü isə Xorvatiya olub.

### Laçına həyat qayıdır

Laçın rayonundakı Zabuxçay su anbarının tikintisi başa çatıb. Anbarın həcmi 27 milyon kubmetrdir. Buradan çıxacaq magistral suvarma kanalının suburaxma qabiliyyəti saniyədə 6,2 kubmetr təşkil edəcək. Su anbarının tikintisi ilə Qubadlı və Zəngilan rayonlarında 12,1 min hektar torpaq sahəsi suvarma suyu ilə təmin olunacaq.

### İctimai nəqliyyat optimallaşdırılır

Bakı şəhərinin və bəzi ətraf rayonların avtobus marşrut şəbəkəsinin optimallaşdırılması davam etdiriləcək. Yerüstü Nəqliyyat Agentliyindən bildirilib ki, avtobus zolaqlarının uzunluğunun 160 kilometrə, gündəlik olaraq xəttə çıxan avtobusların sayının isə 2800-ə çatdırılması nəzərdə tutulub.

# Sabitliyin təməli həmrəylikdir

## Silahların könüllü təhvil verilməsi polisə ictimai inamı göstərir

**Post-müharibə dövrünün əsas çətinliklərindən birini partlamamış sursatlarla çirklənmiş ərazilərin təmizlənməsi və insanların əlinə qeyri-qanuni yollarla keçmiş odlu silahların doğurduğu risklər təşkil edir.**

Bu, müharibədən yenicə qurtulmuş istənilən ölkə üçün keçərlidir. Son 35 ildə iki qanlı müharibə görmüş Azərbaycan da eyni problemlə qarşılaşıb.

Birinci Qarabağ müharibəsində xaotik vəziyyət özünü xeyli miqdarda silah-sursatın mülkü şəxslərin əlinə keçməsi ilə də göstərirdi. Vətən müharibəsində isə düşmənin atıb qaçdığı silah-sursatın kənar əllərə düşməsi ehtimalına qarşı döyüş əməliyyatları getmiş bölgəyə aparan yollarda polis postlarının qurulması mümkün təhdidləri əvvəlcədən önləyə bildi. Hərbi əməliyyatlardan və antiterror tədbirlərindən artıq bir xeyli vaxt keçməsinə baxmayaraq, hələ də həmin ərazilərdə atılmış silahların tapılması polisin təxmin etdiyi risklərin nə qədər böyük olduğunu, üstəlik, təhlükənin tam sovuşmadığını görməyimiz baxımından vacib faktlardır.

Bu gün də polis əməkdaşları partlamamış silah-sursat, döyüşə yararlı atıcı silahlar aşkar edirlər və bu, Böyük Qayıdışa bir töhfə sayılır. Qarabağ sözün hər bir mənasında günü-gündən təmizlənir, kriminal risklərdən, separatizm tör-töküntülərindən arınır.

Bu prosesə yanaşı, müharibədən və antiterror tədbirindən sonra DİN-in qanunsuz saxlanılan silah-



ların polisə könüllü təhvil verilməsi ilə bağlı əhaliyə çağırış etməsi cəmiyyət tərəfindən adekvat reaksiya gördü. Ekspertlər bunun polisin növbəti uğurlu profilaktik tədbiri kimi qiymətli amil olduğunu deyirlər.

Silahların yığılması ilə bağlı kütləvi təşviqin əhəmiyyətini nəzərə alanda, cəmiyyətin hər üzvünün bu prosesə dəstəyi önəmli idi. Doğrusu, bu, elə indi də öz önəmini itirməyib. Çünki hər bir qanunsuz saxlanılan odlu silahın təhlükə mənbəyi olduğu, hansısa ictimai təhlükəli əməlin törədilməsində alətə çevrilə bilməsi qaçılmazdır. Prosesin başlaması ilə kütləvi şəkildə silahların təhvil verilməsi polisə inamın, eyni zamanda, vətəndaşların öz təhlükəsizliklərini təhdid edən riskləri aydın dərk etdiklərini nümayiş etdirir.

Polisin çağırışının güclü şəkildə ictimai dəstək alması cəmiyyətin antinarkotik təbliğatına qoşulmasında da özünü göstərmişdi. Polislə həmrəy olan vətəndaşlar bu bəşəri problemlə mübarizədə çox aktiv iştirak etdi, etməkdədir. Silahların yığılmasında könüllü iştirak da eyni reaksiya doğurdu. Hər hansı cinayət əməlində istifadə edilməyən silahı təhvil verən şəxs haqqında nəinki hüquqi tədbirlər görülür, hətta, əsl vətəndaşlıq nümunəsinə görə polisin təşəkkürünü qazanır. Bu, polis – vətəndaş münasibətlərində olduqca vacib amildir. Çünki ölkəmizin sürətli inkişafını şərtləndirən mövcud sabitliyin təməli məhz vətəndaş həmrəyliyidir.

Bununla paralel olaraq, əməliyyat-axtarış tədbirləri ilə odlu silahların aşkar edilməsi ictimai qayda və ictimai təhlükəsizliyin qorunmasında mübarizənin kəsərini bir qədər də artırmış olur. Qeyd edək ki, ötən il bu istiqamətdə aparılan tədbirlərin nəticəsi kimi qanunsuz odlu silah saxlama və daşıma ilə bağlı 527 fakt müəyyən edilib. Bu cinayətlərə görə 247 nəfərin tutulması, ümumilikdə 7.227 odlu silahın və 1 milyona yaxın sursatın aşkarlanması qarşısı alınan təhlükənin miqyasını sərgiləyir. Hər bir qanunsuz silahın potensial cinayət aləti olduğunu nəzərə alanda, onların "zərərsizləşdirilməsilə" bir o qədər cinayətin önləndiyini deyə bilirik. Heç şübhəsiz ki, polisin bu geniş əhatəli fəaliyyəti nəticə etibarı ilə Azərbaycanda vətəndaşların təhlükəsizliyinə və güclü hüquqi dövlət quruculuğuna xidmət edir.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Unutmadıq, unutmarıq da…

## Onlar dövlətimizin ali diqqət və qayğısı ilə əhatə olunublar

"20 Yanvar" faciəsinin 35-ci ildönümü tamam oldu. Hər il olduğu kimi bu il də Daxili İşlər Nazirliyinin Şəxsi Heyətlə İş İdarəsində həmin qanlı gecədə həyatını itirən polis əməkdaşlarının ailə üzvləri ilə görüş keçirilib.

Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra tədbiri giriş sözü ilə açan idarə rəisi polis polkovniki Elçin Məmmədli qonaqlara daxili işlər naziri general-polkovnik cənab Vilayət Eyvazovun salamlarını çatdırıb, tariximizə qəhrəmanlıq səhifəsi kimi yazılmış "20 Yanvar" faciəsinin xalqımızın yaddaşına əbədi olaraq həkk olunduğunu bildirib.

Qeyd olunub ki, həmin müdhiş gecədə öz xidməti borcunu layiqincə yerinə yetirərək əsl qəhrəmanlıq nümunələri göstərən, şəhidlik zirvəsinə ucalan həmkarlarımızın ömür yolu bu gün sıralarımızda olan, xidmətə yeni başlayan gənclərə örnəkdir.

Sonra şəhid ailələri adından çıxış edən Təranə Bağırova, Qələm Camalova, Cəmilə Əbilhəsənova və Marina Boqdanova şəhidlərin xatirəsinin dövlətimiz, həmçinin DİN rəhbərliyi tərəfindən daim hörmətlə anıldığını, ailələrinə hər zaman maddi və mənəvi yardımın göstərildiyini vurğulayıblar.

Daha sonra şəhid ailələrinə maddi yardım təqdim olunub və onlarla xatirə şəkli çəkdirilib.

*"Polis"*

# Millət vəkilləri Polis Akademiyasında…

## Onlar Akademiyadakı yeniliklərlə tanış olublar

Milli Məclisin İnsan hüquqları komitəsinin təşəbbüsü ilə həmin komitənin sədri Zahid Oruc, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Qüdrət Həsənquliyev Daxili İşlər Nazirliyinin Polis Akademiyasının yeni tədris binasında olublar.

Millət vəkilləri yeni tədris binasında yüksək ixtisaslı mütəxəssislərin hazırlanması, imtahanların keçirilməsi zamanı şəffaflığın təmin olunması üçün beynəlxalq standartlara cavab verən imtahan otağı, elektron kitabxana, ən müasir avadanlıqlarla



təmin olunmuş kriminalistika otağı, kursantların biliklərinin təcrübədə tətbiqi üçün məhkəmə zalı, müasir üslubda tikilmiş yeni yataqxanalar, atış tiri, idman zalları və yeməkxana ilə tanış olublar.

Akademiyanın rəisi polis general-mayoru Canpolad Daanov və rəisin birinci müavini polis polkovniki Vüqar Mansurov Akademiyada tədris prosesinin təşkili, məktəblilərin Polis Akademiyasına cəlb olunmasında DİN-in rolu, Polis Akademiyası kursantlarının hüquq olimpiadalarında son illər birinci yeri tutması, Akademiyanın beynəlxalq əlaqələri, ingilis dilinin tədrisi, COP-29 konfransı zamanı ingilis dilini yüksək səviyyədə mənimsəmiş 400-ə yaxın kursantın könüllü kimi tədbirlərdə fəal iştirakı və digər məsələlər barədə deputatlara məlumat veriblər.

Qonaqlar dərs prosesi ilə tanış olub və kursantların atış bacarıqlarını müşahidə ediblər.

Görülən işləri yüksək qiymətləndirən millət vəkilləri dünyanın bir çox aparıcı ölkələrində kursantlar üçün belə bir şəraitin yaradılmadığını qeyd edib, ünsiyyətdə olduqları kursantlara və Akademiyanın rəhbərliyinə uğurlar arzulayıblar.

*Gümüş Kazımzadə*
*polis serjantı*

# Məktublar razılıq əlamətidir

## Problemlərin həlli vətəndaş məmnunluğu ilə nəticələnir

Şəhid atası olan Şabran rayon sakini Akif Səmədov DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda xidməti vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə görə Xaçmaz RQİ və TBŞ-nin əməkdaşlarına minnətdarlığını bildirir.

Vətəndaş Aişə Cəfərzadə DİN-in "Instagram" səhifəsinə yazdığı mesajında üzləşdiyi problemlə bağlı polisə müraciət etdiyini, Xətai RPİ-nin 35-ci Polis Bölməsinin əməkdaşları tərəfindən qısa müddətdə məsələnin araşdırıldığını yazır. O, müraciətinə diqqətlə yanaşılmasına və keçirilən operativ tədbirlərə görə DİN rəhbərliyinə və Xətai RPİ-nin 35-ci Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Bakı şəhər sakini Fərhad Abbasov Daxili İşlər Nazirliyinə ünvanladığı məktubunda Rusiya Federasiyası vətəndaşı olan qohumunun Nazirliyə etdiyi elektron müraciətinə operativ reaksiya verildiyini qeyd edir. O, müraciətinə diqqətlə yanaşılmasına və keçirilən operativ tədbirlərə görə Səbail Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Vətəndaş Nigar Qasımova DİN-in "Instagram" səhifəsinə təşəkkür mesajı yazıb. O, "102" Xidməti-zəng Mərkəzinə etdiyi müraciəti ilə əlaqədar Baş Dövlət Yol Polisi İdarəsində obyektiv araşdırma aparıldığını və qısa müddətdə müsbət həll olunduğunu yazır. N.Qasımova müraciətinə operativ baxılmasına görə Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Vətəndaş Asəf Zeynalov məktubunda üzləşdiyi problemlə bağlı müraciətinə operativ baxıldığına, obyektiv araşdırılaraq qısa müddətdə müsbət həll edildiyinə və ona dəymiş maddi ziyanın ödətdirilməsində göstərilən köməkliyə görə DİN rəhbərliyinə və Azərbaycan polisinə minnətdarlığını bildirir.

Vətəndaş Urfan Sultanov DİN-in "Instagram" səhifəsinə təşəkkür mesajı yazıb. O, üzləşdiyi yol-nəqliyyat hadisəsi ilə bağlı obyektiv araşdırma aparılmasına görə Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Vətəndaş Həsənova İsmira 34-cü Polis Şöbəsinə ərizə ilə müraciət edib. Müraciətinə dərhal baxılıb və lazımi köməklik göstərilib. Buna görə də o DİN və Xətai RPİ-nin rəhbərliyinə dərin minnətdarlığını bildirir.

# Perspektivlər müzakirə olunub

## Birgə layihələrin həyata keçirilməsi ilə bağlı təkliflər dəyərləndirilib

Səudiyyə Ərəbistanı Krallığında yerləşən Təhlükəsizlik Elmləri üzrə Naif Ərəb Universitetinin prorektoru və nümayəndələri Daxili İşlər Nazirliyinin Polis Akademiyasına səfər ediblər. Qonaqlar Akademiyanın yeni inşa edilmiş tədris korpusları, müasir standartlara uyğun auditoriyaları və tədris prosesinin təşkilində istifadə olunan innovativ modullarla tanış olublar.



Akademiya rəhbərliyi ilə görüşən nümayəndələr tədris resursları və elmi-tədqiqat işlərinin inkişaf perspektivləri, müasir tədris texnologiyalarının tətbiqi, habelə gənc kadrların hazırlanması, yenilənmiş maddi-texniki baza və təhsilalanlar üçün yaradılmış şəraitlə bağlı geniş müzakirələr aparıblar.

Görüş zamanı gələcəkdə beynəlxalq müstəvidə, hüquq-mühafizə sahəsində tərəfdaşlığın möhkəmləndirilməsinin qarşılıqlı təcrübəyə, bilik mübadiləsinə verəcəyi töhfənin əhəmiyyəti qeyd olunub, birgə elmi və praktiki layihələrin həyata keçirilməsi ilə əlaqədar təkliflər irəli sürülüb.

Sonda Təhlükəsizlik Elmləri üzrə Naif Ərəb Universitetinin nümayəndə heyətinə hədiyyələr təqdim edilib, tərəflər arasında qarşılıqlı hörmət və dostluq əlaqələrinin simvolu olaraq xatirə fotoşəkilləri çəkilib.

*"Polis"*

# Sərhəddən başlanan xidmət

## Qürurluyuq ki, gələcəyimizi vətənpərvər gəncliyə etibar etmişik

**Müharibənin xatirəsi və nişanəsi olaraq bədənində qəlpə gəzdirənlər o dəmir parçaları ilə həyatdan köçənə qədər dostluq, yoldaşlıq edirlər. Çünki onlar adi bir dəmir parçası deyil, şirinli-acılı, qanlı-qadalı günlərin xatirəsidir. Əslində, dəmir insana heç də yad deyil, çünki orqanizmimizdə dəmirin mövcudluğunu bilirik.**

Elə qanımız da dəmirə çox həssasdır, qan qoxusu hardasa dəmiri xatırladır.

Adi günlərdə bəzən dəmirə önəm vermərik. Ancaq müharibədə dəmir dost, doğma, arxa olur insana. Söhbət dəmirdən düşmüşkən, bir neçə müddətdir ki, haqqında yazdığım həmkarlarım da "Dəmir yumruq"un gücünə güc qatıb torpaqlarımızın azadlığı uğrunda iştirak ediblər. Məhz poladdan möhkəm olan bu oğulların sayəsində dəmir iradəmiz düşməni yenik salıb, diz çökdürüb.

Bu gün gözə görünən və görünməyən qüvvələrin qarşısını kəsən də, onların əl-qolunu bağlayan da Qafqazda bərqərar olan dəmir nizam-intizamımızdır. Regionun lideri olduğumuzu 44 günlük Vətən müharibəsindən əvvəl bütün dünyaya bəyan etmişdik. Müharibədən sonra da regiona yeni reallıqlar gətirdik…

Əldə etdiyimiz bütün uğurlarda gənclik enerjisi var. Gəncliyin cəmiyyətimizin hərəkətverici qüvvəsi kimi yaradılan şəraitdən ilhamlanaraq əldə etdiyi uğurlar dövlətimizi daha güclü, daha qüdrətli edir. Sıramıza yeni qatılan gənclərlə də səfimiz güclənir, nailiyyətlərimizin sayı artır. Uğura doğru addım-addım uzun, incə bir yola çıxanlardandır polis serjantı Amil Qasımov. O, 2001-ci ildə Kürdəmirin Muğanlı kəndində dünyaya gəlib. Suraxanı rayonundakı 315 nömrəli tam orta məktəbi bitirib. 2019-cu ilin oktyabrında həqiqi hərbi xidmətə çağırılıb. Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsinin əsgəri kimi Vətən sərhədlərinin keşiyini çəkib. Vətənin sərhəddən başladığının xidmət zamanı bir daha şahidi olub. Ayıq-sayıqlığı ilə xidmətdə də fərqlənib, komandirlərinin etimadını qazanıb. Səbrimizin sərhəddinin düşmən tərəfindən keçildiyi o günü belə xatırlayır: "Eşitdiyimiz həyəcan siqnalı bu dəfə tamam başqa idi. Böyük bir hadisədən xəbər verirdi. Komandirlərimiz dedilər ki, düşmən sərhədlərimizdə təxribat törətməklə yanaşı, yeni ərazilər zəbt etmək üçün genişmiqyaslı hücuma keçib. Briqadamız döyüşə hazır idi. Üzü Ağdama doğru yola düşdük. Ağdamdan döyüşə qatılmadıq, Cəbrayıl istiqamətində hərəkət etdik. Sonra tapşırıq gəldi ki, Zəngilanı düşməndən azad etmək üçün döyüşlərə atılmalıyıq".





Uğur, uğursuzluq, qələbə, məğlubiyyət, qan-qada. Bütün bu kimi anlayışları müharibə sözü özündə ehtiva edir. Ancaq müharibənin bir özəlliyi də odur ki, o çətinliklərə sinə gərən, ondan qorxmayan, gələcəkdə öz uğur hekayələrini yaza biləcək fərdlər yetişdirir. Və o fərdlərin cəmiyyətə təsir etmə gücü, yanaşması digərlərindən köklü şəkildə fərqlənir.

Amil deyir ki, müharibə bitdikdən sonra işğaldan azad edilmiş ərazilərdə Əlahiddə Çevik Polis Alayının əməkdaşları xidmətə cəlb olunmuşdu: "Onların xidmətini, dözümlülüyünü görüb həvəsləndim. Özümə söz verdim ki, tərxis olunduqdan sonra polisin sıralarına qatılacağam. 2021-ci ilin iyulunda ordu sıralarından tərxis olundum. Avqust ayında daxili işlər orqanlarında xidmət etmək üçün elektron qaydada müraciət etdim. Sənədlərimi qəbul etdilər. İdman normativlərini uğurla yerinə yetirdim. Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən keçirilən sıra baxışında iştirak etdim. Sevinirəm ki, seçilən 169 nəfərin içində mən də vardım".

O, hazırda Əlahiddə Çevik Polis Alayında xidmət edir, sabitliyin, asayişin keşiyində ayıq-sayıq dayanır.

Həmkarımız Müzəffər Ali Baş Komandanın əmri ilə "Zəngilanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub. Amil 2023-cü ildə keçirilən antitterror tədbirlərinin də iştirakçısıdır.

***Hafiz Təmirov***
***polis polkovniki***

# Gəncliyi qorumaq üçün…

## Birlikdə mübarizə aparırıq

Antinarkotik təbliğatı çərçivəsində paytaxtın Nərimanov rayonundakı S.C.Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyasında Rayon Polis İdarəsinin təşkilatçılığı ilə "Narkomaniyaya yox deyək!" mövzusunda keçirilən maarifləndirici tədbirdə polis əməkdaşları, məktəbin müəllim və yuxarı sinif şagirdləri, eləcə də valideynlər iştirak ediblər. Tədbirdə çıxış edən Nərimanov RPİ-nin rəis müavini polis mayoru Bəxtiyar Abbaszadə narkomaniyanın gəncliyimizi hədəfə aldığını diqqətə çatdıraraq onunla mübarizədə dövlətimizin bütün qurumlarının səfərbər olduğunu bildirib.

Qeyd olunub ki, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində həyata keçirilən uğurlu əməliyyat-axtarış tədbirlərinin məqsədi onları layiqli cəzalarına çatdırmaqdır. Bu istiqamətdə keçirilən maarifləndirmə tədbirləri də vətəndaş məmnunluğu ilə müşahidə olunur. Gənclərə təhsilə, idmana daha çox maraq göstərmələrini tövsiyə edən tədbir iştirakçıları milli-mənəvi təhlükə mənbəyinə çevrilən narkomaniyanın dinindən, irqindən, milliyyətindən, sosial vəziyyətindən asılı olmayaraq hamı üçün eyni dərəcəli təhlükə olduğunu diqqətə çatdırıblar.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, narkomaniyanın fəsadlarından bəhs edən sosial çarx nümayiş etdirilib.

# Ekspertlərin həyəcan təbili

## Aparılan araşdırmalar qanunun sərtləşdirilməsini tələb edir

Son dövrlərdə aparılan araşdırmalar narkotik maddə istifadə edən sürücülərin sayının spirtli içki qəbul etmiş sürücülərin sayını keçdiyini göstərir. Bu tendensiyanın səbəbləri nələrdir? Hüquq-mühafizə orqanları və aidiyyəti qurumlar bu problemin qarşısını almaq üçün hansı tədbirləri görməlidirlər?

Mövzu ilə bağlı DİN-in Baş DYP İdarəsindən bildirilib ki, ötən günlər ərzində narkotik və psixotrop maddələrin təsiri altında nəqliyyat vasitəsini idarə edən şəxslər tərəfindən 19 yol-nəqliyyat hadisəsi baş verib: "Hadisələr nəticəsində 10 nəfər həlak olub, 15 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb. Yol polisinin və müvafiq orqanların dəfələrlə etdiyi xəbərdarlıqlara baxmayaraq, bəzi sürücülər təhlükəsizlik qaydalarına laqeyd yanaşır, həm öz həyatlarını, həm də digər sürücülərin həyatlarını təhlükəyə atırlar".

Mütəxəssislər bildirirlər ki, hər bir sürücü yol hərəkəti qaydalarına ciddi riayət etməli, yalnız təhlükəsiz və sağlam vəziyyətdə nəqliyyat vasitələrini idarə etməlidir. Həmçinin təhlükəsiz səyahət üçün sürücülərin qanuni və sağlam qaydalarla hərəkət etmələri vacibdir.

Nəqliyyat eksperti Elməddin Muradlı: "Aparılan statistik təhlillər göstərir ki, narkotik vasitələrin təsiri altında avtomobil idarə edən sürücülərin sayı spirtli içki qəbul edən sürücülərin sayını keçib. Azərbaycanda narkomaniyaya qarşı bu qədər tədbir görüldüyü bir dövrdə belə bir rəqəmin ortaya çıxması narahatlıq doğurur.

Əgər sürücü narkotik vasitənin təsiri altında avtomobili idarə edirsə, təhlükə daha da ciddiləşir. Bununla bağlı aidiyyəti qurumlar ciddi nəzarət tədbirləri həyata keçirməlidirlər.

Yol polisinin bu istiqamətdə mübarizə metodu və üsulları nəticə verir ki, bu qədər faktlar üzə çıxıb. Bu məsələdə qanunvericiliyin daha da sərtləşdirilməsinə ehtiyac var. Cəzalar daha sərt olmalıdır".

# Narkotiklə tutuldular

## Polis narkoşəbəkəni zərərsizləşdirdi

DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşları İmişli rayonu ərazisində tədarükçü-ekspeditor narkoşəbəkənin üzvlərini ifşa ediblər. Tədbirlərlə əvvəllər məhkum olunan 41 yaşlı Elşən Əliyev və 32 yaşlı Tərlan Bağırov saxlanılıb. Onların avtomobilindən və yaşayış ünvanlarından 62 kiloqram tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş marixuana aşkarlanıb. Baş İdarə əməkdaşlarının həyata keçirdikləri digər tədbirlərlə 39 yaşlı Ceyhun İsmayılov və 29 yaşlı Rəşad Məmmədli də narkotiklərin qanunsuz dövriyyəsini təşkil etdikləri üçün saxlanılıblar. Onların üzərindən və yaşadıqları evlərdən 18 kiloqram marixuana, heroin, psixotrop maddə metamfetamin və metadon həbləri aşkarlanıb. Saxlanılan şəxslər ifadələrində narkotikləri satış məqsədilə əldə etdiklərini bildiriblər. Faktlarla bağlı cinayət işləri başlanılıb, onlar barəsində həbs qətimkan tədbirləri seçilib. Elşən Əliyev, Ceyhun İsmayılov, Rəşad Məmmədli və Tərlan Bağırovla əlbir olan digər şəxslərin də saxlanılması istiqamətində tədbirlər davam etdirilir.

# Qanunsuz ov edirdilər

## "Ovçu"lardan sənədləri olmayan ov silahları götürülüb

DİN NBPİ-nin Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşlarının sərhədçilərlə birgə Lənkəranda həyata keçirdikləri sonuncu tədbir zamanı qanunsuz quş ovu ilə məşğul olan Masallı rayon sakinləri Cəmil Nuruyev, Ramil Nuruyev, Murad İsgəndərov, Orxan Kamilli və Sərdar Sadiqoğlu saxlanılıb. Yoxlama zamanı onlardan 2 ədəd kiçik həcmli qeydiyyatı olmayan qayıq, 175 ədəd müxtəlif növ, o cümlədən adı "Qırmızı Kitab"a düşən çöl quşları, 4 ədəd müvafiq sənədləri olmayan ov silahı və 134 ədəd patron maddi sübut kimi aşkar olunaraq götürülüb. Araşdırmalar zamanı həmin şəxslərin ovçuluq biletlərinin olmadığı da müəyyən edilib. Araşdırmalar davam etdirilir.

# Dələduzluq etmişdi

## Məhkəmənin qərarı ilə həbs olundu

Mingəçevir Şəhər Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən tədbirlər nəticəsində vətəndaşların etibarından sui-istifadə edərək onlara külli miqdarda maddi ziyan vuran 58 yaşlı Rasim Həsənov saxlanılıb. Şəki regional qrupumuzdan verilən məlumata görə, o, zərərçəkənlərə torpaq sahəsi satmaq, qeyri-yaşayış obyektlərini adlarına rəsmiləşdirmək və digər yalan vədlər verərək həmin şəxslərin 165 min manat pulunu dələduzluqla ələ keçirib.

Fakta bağlı cinayət işi başlanılıb, məhkəmənin qərarı ilə onun barəsində həbs qətimkan tədbiri seçilib.

R.Həsənovun digər analoji cinayətlərdə də iştirakı istisna olunmur.

# Eyni əməl, eyni üsul

## Vərdişi onu məhbəsə saldı

Bakı şəhərinin Xəzər rayonunda "Chevrolet" markalı avtomobildən 1800 manatın oğurlanması barədə polisə məlumat daxil olub. Xəzər RPİ 2-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə oğurluq əməlini törətməkdə şübhəli bilinən S.Eminov saxlanılıb. Araşdırmalarla onun rayon ərazisində yerləşən bir neçə evdən ümumilikdə 11250 manat dəyərində məişət əşyaları, inşaat materialları, təmir alətləri və elektrik naqili oğurlaması da müəyyən olunub.

Rayon ərazisində oxşar üsulla törədilmiş daha bir oğurluq əməlinin üstü açılıb. Binə qəsəbəsi ərazisində "Toyota" markalı avtomobildən mobil telefon, gödəkçə və digər əşyaları oğurlamaqda şübhəli bilinən, əvvəllər narkotiklə əlaqəli cinayətə görə məhkum olunmuş P.Talıbov da polis əməkdaşları tərəfindən saxlanılıb. Araşdırmalarla saxlanılan şəxsin bir neçə avtomobildən pul, məişət əşyası, video-qeydiyyat qurğusunu oğurlaması da müəyyən olunub. Hər iki faktla bağlı araşdırma aparılır.

# Şübhəlilər saxlanıldı

## Əməllərinə hüquqi qiymət veriləcək

Bakı şəhərinin Nizami və Binəqədi rayonlarında dələduzluq edən şəxslər saxlanılıb. Nizami rayonu ərazisində bir nəfərin avtomobil kirayəsi adı ilə aldadılaraq 620 manatının mənimsənilməsi barədə polisə məlumat daxil olub. Nizami RPİ 24-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə dələduzluq əməlini törətməkdə şübhəli bilinən 35 yaşlı E.Cavadov müəyyən olunaraq saxlanılıb.

Bundan başqa Binəqədi rayonu ərazisində bir nəfərə məxsus bank kartından 380 manat oğurlamaqda şübhəli bilinən 24 yaşlı L.Babayevanın saxlanılması da polis əməkdaşları tərəfindən təmin edilib.

# Polis Akademiyasına müsabiqə başlayıb

## Şərtlər, yaradılan şərait və perspektivlər

**Daxili İşlər Nazirliyi Polis Akademiyasına əyani təhsilə III qrupdan “Hüquqşünaslıq” ixtisasına 500, I qrupdan “İnformasiya təhlükəsizliyi” ixtisasına 25 kursantın qəbuluna dair müsabiqə elan edir.**









Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu 165 sm-dən az olmayan, yaşı 16-dan 18-dək, 11-ci sinifdə oxuyan və ya tam orta təhsilli, həqiqi hərbi xidmətə yararlı olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

Xüsusi təyinatlı təhsil müəssisəsinə sənədlərin qəbulu 2025-ci il fevralın 23-dək namizədin daimi qeydiyyatda olduğu yer üzrə polis idarə və ya şöbələrində həyata keçirilir.

“Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisas fənləri üzrə müsabiqədən keçən abituriyentlərin siyahısı Dövlət İmtahan Mərkəzinə göndərilir.

İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Seçilən abituriyentlərlə daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanır.

Tədris Azərbaycan dilindədir, müddəti 4 ildir.

Kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, Akademiyanın ərazisində yerləşən müasir standartlara tam cavab verən yataqxanada yaşayırlar.

Məzunlara “Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisasları üzrə “polis leytenantı” xüsusi və “ehtiyatda olan leytenant” hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

**Qəbul qaydaları haqqında daha ətraflı məlumatları (012) 590-97-76, (012) 454-12-78 nömrəli telefonlar, habelə Polis Akademiyasının "8880" qaynar xətti vasitəsilə və ya www.mia.gov.az, www.pa.edu.az internet saytlarından, Polis Akademiyasının rəsmi instaqram və feysbuk sosial şəbəkələrindən əldə edə bilərsiniz.**

# Media müsabiqəsi keçirilir

## Müsabiqənin təşəbbüskarı Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasıdır

Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının təşəbbüsü ilə Birlik ölkələrinin dövlət və ictimai qurumları ilə medianın qarşılıqlı fəaliyyətinin gücləndirilməsi, hüquq-mühafizə orqanlarında xidmətin təşviqi və MDB üzvü olan dövlətlərin daxili işlər orqanları əməkdaşlarının nüfuzunun artırılması məqsədi ilə 2025-ci il üçün müsabiqə elan edilir.

Müsabiqədə MDB-yə üzv olan ölkələrin polis və mülki əməkdaşları ilə bərabər 18 yaşından yuxarı olan digər vətəndaşlar da iştirak edə bilərlər.

İştirakçılar müsabiqənin şərtləri və qaydalarına dair ətraflı məlumatla Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin rəsmi internet saytında və Mütəşəkkil cinayətkarlıqla və cinayətkarlığın digər təhlükəli növləri ilə mübarizə üzrə Əlaqələndirmə Bürosunun (MCMƏB) rəsmi internet saytının müvafiq bölməsinə (https://bkbop-cis.ru/galereya/mediakonkurs/) keçid etməklə tanış ola bilərlər.

Müsabiqəyə foto və media işləri üzrə təqdim edilən nominasiyalar aşağıdakılardır.

1. **"Qələbə günü"**
2. **“Doğma diyarın gözəlliyi”**
3. **“Bizim növbəmiz”**
4. **"Postda"**

İşlər rəqəmsal formatda təqdim edilməlidir.

Müsabiqə hər il iki mərhələdə keçirilir.

Müsabiqənin birinci mərhələsi 2025-ci ilin yanvarın 10-dan iyulun 10-dək keçirilir. Bura iştirak üçün ərizələrin göndərilməsi, işlərin qəbulu və seçilməsi daxildir.

İkinci mərhələ 11 iyul - 31 iyul 2025-ci il tarixlərini əhatə edir. Bura müsabiqə komitəsi tərəfindən işlərin qiymətləndirilməsi daxildir.

Müsabiqədə iştirak etmək üçün iştirakçılar ərizələri doldururlar.

Ərizə hər bir iş üçün rus dilində doldurulur və müəllif tərəfindən imzalanır. Ərizədəki bütün sahələrin doldurulması tələb olunur.

*"Polis"*

# Cəsəd oğrusu Eduard Qin

## Tarixin ən təhlükəli qatilinin tükürpədici qətlləri

Əsl adı Eduard Qindir. “Məzar oğrusu” və “dəri soyan” ləqəbləri ilə tanınır. O, tarixdə ən vəhşi, ən qaniçən qatil olaraq xatırlanır. Törətdiyi qətllərin sayı dəqiq bilinməsə də məhkəmədə yalnız 15 insanın qətlində günahlandırılaraq həbs edilib. Qatil öldürdüyü şəxslərin meyitləri üzərində ağılasığmaz dərəcədə insanlığa sığmayan hərəkətlər edib. Məsələn, o qadınları öldürdükdən sonra onların dərisini soyurdu, bu, onda adət halını almışdı.

### O, anasına bənzəmək istəyirdi

Eduardın cinayətlərini incələyən mütəxəssislər onun uşaqlıq illərində böyük bir travma yaşadığı qənaətinə gəliblər. Sonradan bu faktlar öz təsdiqini tapıb. Qeyd olunur ki, uşaqlıq illəri çox ağır və iztirablı keçib. Atası içki düşkünü, anası isə olduqca dindar xristian olub. Eduard anasını çox sevirdi. Ona həddindən artıq bağlı idi. Lakin məsələnin maraqlı tərəfi budur ki, anası uşaqlarının yanında qadınların iyrənc və günahkar məxluqlar olduğunu deyirdi. Sözsüz ki, belə yanlış yanaşma uşaqlarda qadınlara qarşı aqressiya formalaşdırırdı.

Eduardın qardaşı Henri anasının qadınlara belə yanaşmasını qəbul etmirdi…

Və günlərin birində Henrinin



samanlıqda yanmış meyiti tapılır. Lakin onun kim tərəfindən qətlə yetirildiyi naməlum qalır. Anasının ölümündən sonra Ed dərin sarsıntı keçirir. Ona elə gəlirdi ki, anasının ruhu onun bədənindədir, anası onu tərk etməyib. Ed psixoloji gərginlikdən çıxmaq üçün maraqlı bir üsula əl atır. Şübhəsiz ki, bu hərəkəti cəmiyyət tərəfindən xoş qarşılanmayacaqdı. Bunu bildiyi üçün o gecələr “işləyirdi”. O, qəbirstanlıqdan meyitləri oğurlayıb evinə gətirir, onların üzərində təcrübə aparırdı. Meyitlər üzərindəki “işi” onu insan öldürməyə təhrik edirdi. Eduard ilk cinayətini 1954-cü ildə törədir. Bir qadını odlu silahla qətlə yetirir. Daha sonra onun 90 kiloqramlıq meyitini evə daşıyır. Anasına çox bənzəyən qadınının meyitini parçalayıb dərisini soyur. Daha sonra həmin dəridən özünə paltar düzəldib geyinir və güzgüyə baxdıqda anasına çox bənzədiyini düşünür.

### Meyitlər üzərində təcrübə

Meyit oğurlamaq artıq onun üçün adi hala çevrilmişdi və getdikcə əzginləşirdi. Adam öldürmək, meyitlərin üzərində təcrübə aparmaq, insan gözündən, qulağından, dərisindən müxtəlif bəzək əşyaları düzəltmək onun hobbisinə çevrilmişdi…

O, nə vaxtsa ələ keçəcəyindən və çox ağır cəzalanacağından qorxurdu. Çünki evindəki meyitlər çürüdükcə üfunət iyi ətrafa yayılırdı. Onları evinin bağçasında basdırmağa da risk etmirdi. Lakin bu dəfə kələfin ucunu ələ verir. 1957-ci ildə törətdiyi cinayətdən sonra nəzərlər ona yönəlir. Lakin olduqca sakit və mülayim olan Eduardın maskalanmış qatil və mankyak olduğundan kimsə şübhələnmirdi.

Polis çox dəqiqliklə hazırlanmış bir əməliyyat həyata keçirir və onlar gördükləri mənzərə qarşısında sadəcə mat qalırlar. İnsan dərisindən stullar, sümüklərdən müxtəlif bəzək əşyaları, əlcəklər, alətlər, necə deyərlər, sözlə ifadə olunması mümkün olmayan daha nələr…

### Qatil məhkəmə qarşısına çıxarılır

Məhkəmə qarşısına çıxarılan Eduard psixi xəstə olduğu üçün dəlixanaya yerləşdirilir. 10 ildən sonra yenidən müttəhim kürsüsünə çıxarılır. Lakin yenə də psixi durumu düzəlmədiyi üçün bu dəfə ömürlük dəlixanaya aparılır.

Sonra onun cinayət işləri ilə yazıçılar, rejissorlar tanış olurlar. Haqqında onlarla film çəkilir. Səhhəti olduqca ağırlaşan “Tarixin ən qəddar adamı” 1984-cü ildə ölsə də törətdiyi qətllər insanlıq tarixinin ən qanlı cinayətləri olaraq tarixə yazılır. Onun necə qatı bir cinayətkar, psixoloji baxımdan insan öldürməyə hazırlıqlı və həvəsli olduğu bu sözlərindən daha aydın olur: “Mənə doğru gələn qadını gördüyümdə ilk ağlıma gələn ona xoş davranmaq, onunla söhbətləşməkdir. Sonra isə onun başını ucu iti mizrağa keçirilmiş halda təsəvvür edirəm”.

*Aytən Tahirova*
*polis kapitanı*




# Növbəti nailiyyət

## Əməkdaşımız beynəlxalq turnirdə uğurla çıxış edib

Macarıstanın Budapeşt şəhərində keçirilən savat assault və savat kombat idman növləri üzrə beynəlxalq yarışda həmkarımız da iştirak edib.

Gəncə şəhər Baş Polis İdarəsinin xüsusi təyinatlı bölüyünün manqa komandiri Sənan Babazadə ənənəvi "Budapest Open" turnirində gücünü sınayıb. Böyüklər arasında +85 kiloqram çəki dərəcəsində çıxış edən polis baş serjantı bürünc medala sahib olub.

O, daha əvvəl də savat kombat idman növü üzrə Özbəkistanda, Xarvatiyada və Macarıstanda keçirilən beynəlxalq dərəcəli müxtəlif yarışlarda adını qaliblər sırasına yazdırıb, 3 dəfə respublika çempionu olub.

Xidməti vəzifəsinin icrasında da fərqlənir. 2023-cü ildə antiterror tədbirlərində iştirak edən idmançı həmkarımız Azərbaycan Prezidentinin sərəncamı ilə “İgidliyə görə” medalı ilə təltif olunub.

# Təlimlərə start verilib

## Məqsəd peşəkarlıq səviyyəsinin artırılmasıdır

Polis Akademiyasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin Keyfiyyətin təminatı şöbəsinin müdiri, fizika üzrə fəlsəfə doktoru, dosent Qalib Şərifovun rəhbərliyi ilə "Ali təhsil səviyyəsində fənn təlim nəticələrinin yazılması və reallaşdırılması” mövzusunda keçirilən təlimə tədris prosesində iştirak edən professor-müəllim heyəti qatılıb. Təlimin məqsədi iştirakçıların tədris etdikləri fənlər üzrə təlim nəticələrinin hazırlanması, fənnin təlim nəticələrinə uyğun sillabusların hazırlanması və qiymətləndirmənin həyata keçirilməsi kimi kompetensiyalara yiyələnmələrinin təkmilləşdirilməsidir.

Akademiyadan bildirilib ki, təlimlər növbəti mərhələlərdə təcrübəli mütəxəssislərin iştirakı ilə davam etdiriləcəkdir.

# Tütünçəkmənin zərərləri

## Kursantlar mütəxəssislər tərəfindən maarifləndirilib

Polis Akademiyasının Şəxsi heyətlə iş üzrə şöbəsinin psixoloqu, polis mayoru Azər Hüseynov və Tibb-sanitariya hissəsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Əlinur Hüseynlinin “Tütünçəkmənin zərərləri və yaranmış fəsadların aradan qaldırılması yolları” mövzusu üzrə Polis Akademiyasının I kurs kursantları ilə maarifləndirici görüşü təşkil edilib. Kurs rəhbərliyi kursantların mənəvi-psixoloji hazırlığında bu tip tədbirlərin keçirilməsinin əhəmiyyətini vurğulayıb. Ə.Hüseynli gənclər arasında bir bəlaya çevrilmiş tütünçəkməyə aludəçiliyin yaranma səbəbləri, tütünçəkmənin insan orqanizmində törətdiyi fəsadlar, tütünçəkmədən imtina etmə yolları barədə ətraflı şəkildə danışıb və böyük marağa səbəb olan slaydlar nümayiş etdirib. A.Hüseynov siqaretdən istifadənin üç mərhələsi olduğunu (epizodik, sistematik, xroniki) və 2 cür asılılıq (psixoloji və fizioloji) olmasını qeyd edərək epizodik mərhələdə siqaretdən uzaqlaşmağın daha asan olduğunu, siqaretin əslində bizim problemlərimizin həlli olmadığını, əksinə bizim özümüzlə üzləşməyimizə mane olduğunu, orqanizmi həm psixoloji, həm də fiziki olaraq zəhərlədiyini kursantların diqqətinə çatdırıb. Siqaretdən uzaqlaşmağın müxtəlif yolları, həmçinin sağlamlığın möhkəmlənməsinə yönəlmiş müsbət davranış (idman, gəzinti) formaları kursantlara öyrədilib. Görüşün sonunda mövzu ilə əlaqədar kursantların təklif və tövsiyələri dinlənilib, onları maraqlandıran bir sıra suallar cavablandırılaraq istiqamətlər verilib.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik